Tural TURAN

# ŞUŞANIN SƏSİ



Döyüşə-döyüşə Şuşaya qədər gedib çıxan dostlarımdan xahiş etmişdim ki, qalalar qalasının son halını əks etdirən görüntülər çəkib göndərsinlər. Sağ olsunlar, sözümü yerə salmadılar. Beş dəqiqəlik videoda nələr yox idi ki, İlahi...

Boyuna qurban olduğum Şuşa bir tərəfini Kirsə söykəyib dumanların arasında nəfəs dərirdi, ətrafdakı dağlar isə bizim oğullara. Tanrı həmin gün Şuşanın boynuna ağ şərf salmışdı, şüşə kimi şəhərimizə azadlığın ilk qarı yağmışdı.

Vaqifin son evini görüncə gözlərim səyridi. Murdar vandallar məqbərəni elə günə qoymuşdular ki, zorlanmış, fəqət dizi yerə gəlməyən iffətli gəlini xatırladırdı. Əzəmətini qoruyub saxlayırdı. Vaqif də işğaldan azad olunmuşdu, şeirləri də...

Mamayı məhəlləsi... Bulaqdan axan su da Azərbaycan dilində idi. Dilini unutmamışdı. Bir az da Xanın, Seyidin səsinə oxşayırdı.

Cıdır düzü... qayalarda güllə izləri... Videoda bir əsgərin səsi gəlirdi: "Tural qardaşımıza de ki, biz bu qayalıqlarnan qalxdıq Şuşaya, özü də çiynimizdə şəhidlərlə..."

...Hamamqabağı məhəlləsi “xaç suyuna” salınsa da, “mən hələ də müsəlmanam” deyirdi. Videodakı görüntülərlə Yuxarı Gövhərağa məscidinə sarı buruldaqca gördüm ki, düz deyir.

Köçərli məhəlləsində dağıdılmış evlərin yuxarısında payız otu saralmağa başlayır. Deyəsən, evlərin damları da xarıbülbülə hamilədir. Deyəsən, bu il Şuşa xarıbülbülü daha tez doğacaq.

Natəvanın çəkdirdiyi bulaqdan su gəlməsə də, ağı səsi gəlirdi. Sanki bu bulaq çəkilərkən şair içindəki bulağı çəkdirdiyi bulağa tapşırıb gedibmiş...

Video bitəndən sonra istər-istəməz dilimdən bir söz süzüldü:

– Biz qayıtdıq! Biz yenidən quracağıq!

Şuşa isə hələ yenidən qurulmamış gülümsəyir. Yenidən ev olmasına, ailə olmasına təbəssüm və şükür edir. Uçuq daşları danışır, çatlamış divarları dil-dil ötür...

Birdən qulaqlarım cingildəyir. Şuşanın öz səsidir:

– Siz qayıtmadınız, mən geri döndüm. Dönməyə də bilərdim, daşım daş üstündə qalmaya da bilərdi. 28 il yarım təkbaşına döyüşdüm burada... Heydən düşəndə siz gəldiniz...